# MUZDLULUĞA BEYNƏLXALQ HÜQUQİ BAXIŞ: AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT MƏCƏLLƏSİ VƏ BEYNƏLXALQ KONVENSİYALARIN MÜQAYİSƏLİ TƏHLİLİ

**Əlövsət Allahverdiyev,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ " UNESCO kafedrası, müəllim.**
e-mail: lawyer.406@gmail.com;
telefon:+99470 222 40 09.

*Məqalədə müəllif tərəfindən muzdluluğun beynəlxalq hüquqi aspektdən izahı verilmişdir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində muzdluluq müharibə cinayəti kimi göstərildiyindən beynəlxalq humanitar hüquq normaları ilə məcəllənin yanaşmasında bur uyğunsuzluq yaranmışdır. Doğrudur, muzdluluq beynəlxalq səviyyədə qadağan olunmuş əməldir. Muzdluluğu özündə əks etdirən beynəlxalq konvensiyalarda bu əməl cinayət kimi, Azərbaycan Respublikasının cinayət məcəlləsində isə müharibə cinayəti kimi göstərildiyindən müəllif müqayisəli təhlilə üstünlük vermişdir. İzah olunmuşdur ki, beynəlxalq humanitar hüquq normalarına görə, muzdluluq cinayət hesab olunmur. Cenevrə Konvensiyalarına görə isə, muzdlular silahlı münaqişə zamanı əsir götürüldükdə belə, hərbi əsir statusuna malik olmur.*

**Açar sözlər:** muzdluluq, müharibə cinayəti, cinayət məcəlləsi, beynəlxalq humanitar hüquq.

Müharibə cinayətlərinin milli məhkəmələr tərəfindən təqib olunması müasir dövür üçün olduqca aktualdır və həm də beynəlxalq cinayətlərin təqib olunması dövlətlərin əsas öhdəliklərindən biridir. Beynəlxalq himanitar hüquq normalarına görə dövlətlər öz vətəndaşları və ya silahlı qüvvələri tərəfindən törədilmiş müharibə cinayətlərini araşdırmalı və lazım gəldikdə şübhəli şəxsləri təqib etməlidirər. Eyni zamanda dövlətlər milli qanunvericiliyin öz məhkəmələrinə verdiyi cinayət yurisdiksiyasından istifadə etməklə, həm ərazi və şəxsi yurisdiksiya ilə məhdudlaşa bilər, həm də ciddi pozuntular üçün məcburi olan universal yurisdiksiyanı həyata keçirə bilər. Bu prizmadan yanaşsaq, qeyd edə bilərik ki, müharibə cinayətləri ilə bağlı normalar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 114-119-cu maddələrini əhatə etməklə, beynəlxalq humanitar hüquq normalarını özündə ehtiva etmiş və bu cinayətləri törətməkdə təqsirli bilinən şəxslərin təqib olunmasına əsas yaratmışdır.Demək olar ki, məcəllənin bu müddəaları (muzdluluq istisna olmaqla) Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu və Cenevrə Konvensiyalarının tələbləri kifayət qədər normal əks olunmuşdur. Sadəcə, 114-cü maddənin (muzdluluq) müharibə cinayəti hesab olunması müəyyən qədər paradoksal məqamları üzə çıxarır. Bu səbəbdən də problem kimi görünən muzdluluğun müharibə cinayətlərinin tərkibini yaradıb-yaratmamasını təhlil etməyə çalışacağıq.

...114.3-cü maddəyə görə muzdlunun silahlı münaqişədə və ya hərbi əməliyyatlarda iştirakı – beş ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Ümumi şəkildə yanaşsaq, Cinayət Məcəlləsinin 114.1 və 114.2-ci maddələrində muzdlular yığma, onlara təlim keçmə, maliyyələşdirmə və başqa cür maddi təminat vermə, habelə onlardan hərbi münaqişədə və ya hərbi əməliyyatlarda istifadə etmə kimi əməllər konkret olaraq müharibə cinayəti kimi göstərilmişdir. Bu cinayətin ağırlaşdırıcı tərkib əlaməti Məcəllənin 114.2-ci maddəsində göstərilmişdir. Belə ki, muzdluluq cinayətinin vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi, bu cinayətin yetkinlik yaşına çatmayan şəxs barəsində törədilməsi, yəni yetkinlik yaşına çatmayanların muzdu qismində cəlb edilməsi, onlardan hərbi əməliyyatlarda istifadə olunması və s. bu əməlin ictimai təhlükəliliyini artırır [1].

Məcəllənin qeyd hissəsində göstərilir ki, bu fəsildə nəzərdə tutulmuş istər beynəlxalq, istərsə də daxili silahlı münaqişə zamanı hərbi əməliyyatların planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması ilə əlaqədar olaraq törədilmiş əməllər müharibə cinayətləri hesab olunur [2].

Göründüyü kimi, məcəllədə muzdluluq müharibə cinayətlərinin tərkibini yaradan əməl kimi göstərilib. Doğrudur, muzdluluq beynəlxalq sferada da qəbul olunmur, lakin buna baxmayaraq, beynəlxalq humanitar hüquqa görə muzdlu olmaq konkret cinayət tərkibi yaratmır [3], sadəcə bunlar muzdluların vətəndaşı olduğu ölkələrin cinayət qanunvericiliyinə görəməsuliyyətə səbəb olur, eyni zamanda bundan istifadə edən dövlət üçün öhdəliklərin pozulması kimi dəyərləndirilir. Birbaşa olmasa da Beynəlxalq Cinayət Məhkəməsi də muzdlu məsləsində beynəlxalq humanitar hüququn mövqeyindən çıxış edir və bu səbəbdən də bu məsələ ilə bağlı konkret yanaşma təqdim etməyib. Beynəlxalq humanitar hüquq normalarına görə muzdlular həbs olunarsa, onlar hərbi əsir statusu almaq hüququna malik deyillər [4]. Bunu özündə əks etdirən iki xüsusi beynəlxalq konvensiya mövcuddur:

Birinci Konvensiya,“Muzdluların işə götürülməsinə, istifadəsinə, maliyyələşdirilməsinə və təliminə qarşı” 1989-cu il Konvensiyasıdır. Konvensiya ayrı-ayrı muzdlular, muzdluları işə götürən, istifadə edən, maliyyələşdirən və ya öyrədən şəxslər və iştirakçı dövlətlər tərəfindən törədilə bilən bir sıra cinayətləri müəyyən edir və iştirakçı dövlətlərə bir sıra müvafiq öhdəliklər qoyur [5].

Konvensiya həmçinin cinayətkarların milli səviyyədə təqibini asanlaşdırmaq üçün çərçivə müəyyən edir. O, dövlətlərdən tələb edir ki, onların qanunvericiliyi təqibi mümkün edir. Onların ərazisində olduğu iddia edilən hər hansı cinayətkar nəzarətə alınmalı və ilkin araşdırma aparılmalıdır. Əgər aidiyyəti şəxs mühakimə olunmaq üçün başqa dövlətə verilmirsə, iş səlahiyyətli milli orqanlara təqdim edilməlidir. Proses boyunca cinayət törətdiyi iddia edilən şəxs ədalətli rəftardan və məhkəmə təminatlarından faydalanmalıdır. Dövlətlər bir-biri ilə həm cinayətlərin qarşısının alınmasında, həm də cinayət təqibində, o cümlədən məlumat mübadiləsi yolu ilə əməkdaşlıq etməlidirlər. Nəhayət, Konvensiya sənədin təfsiri və ya tətbiqi ilə bağlı iştirakçı dövlətlər arasında mübahisələrin həlli prosedurunu müəyyən edir.

İkinci Konvensiya isə "Afrikada muzdluluğun aradan qaldırılması haqqında" regional Konvensiyadır. Demək olar ki, hər iki konvensiya bir çox dövlətlər tərəfindən ratifikasiya olunmuşdur. Konvensiyaların qəbul olunmasında məqsədhər hansı davranış və statusu tənzimləmək deyil, muzdluların cinayət məsuliyyətinə cəlb olunması prosesini sürətləndirməkdir. Maraqlıdır ki, bu əməllər, adıçəkilən konvensiyalarla cinayət hesab olunsa da, beynəlxalq humanitar hüquq normalarına görə, muzdlu olmaq Cenevrə Konvensiyaları və ya Protokolların pozulması hesab olunmur [6]. Cenevrə Konvensiyaları və I Əlavə Protokolda muzdluların adı çəkilsə də, beynəlxalq humanitar hüquqda onun qanuniliyi araşdırılmır [7]. Daha doğrusu, beynəlxalq silahlı münaqişələr zamanı əsir düşən muzdlulara veriləcək statusa diqqət yetirilir. Muzdluların döyüşçü və ya hərbi əsir statusu almaq hüququ yoxdur və başqa sözlə, onlar "imtiyazsız döyüşçülər" kimi qəbul edilir.

Quruda müharibə zamanı bitərəf dövlətlərin və şəxslərin hüquq və öhdəliklərinə dair V Haaqa Konvensiyasının (1907) 4-cü maddəsinə əsasən,döyüşən tərəflərə kömək etmək üçün bitərəf dövlətin ərazisində döyüşçülərdən ibarət ordu yaradıla və ya işə götürmə agentlikləri açıla bilməz. Beləliklə, bitərəf dövlət öz ərazisində bu kimifəaliyyətin həyata keçirilməsinin qarşısını almağa borcludur. Amma burada çox həssas bir məqama diqqət yetirmək lazımdır. Konvensiya belə hərəkətləri etməkdən dövləti çəkindirir, lakin fiziki şəxslərin üzrəinə belə bir məsuliyyəti qoymur. Həmin maddədə qeyd olunur ki, fərdlərin öz istəkləri ilə sərhədi keçərək döyüşən tərəflərə öz xidmətlərini təklif etmələri məsuliyyət yarada bilməz. Burada belə bir hal nəzərə alınır ki, belə şəxslər könüllü olaraq, öz arzu və istəklərinə uyğun olaraq muzdlu kimi döyüşməyə razılıq verirlər. Bu hal isə ancaq onların vətəndaşı olduqları ölkə üçün barahatlıq yarada bilər. Göründüyü kimi, bu maddənin əsas tələbi dövlətlər üçün neytral qalmağı seçdikləri silahlı münaqişəyə müdaxilə etmək məqsədilə öz ərazilərində muzdlu qrupların yaradılmasının qarşısını almaq öhdəliyinin təmin olunmasıdır [8[. Əgər bunu etməsələr, beynəlxalq hüquq çərçivəsində üzərlərinə götürdükləri öhdəlikləri pozmuş olurlar.Əslində, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 114-cü maddəsinin tələbində də belə hallar nəzərə alınmışdır, həmin maddədə konkret olaraq, muzdluları yığmaq, onlara təlim keçmək, maliyyələşdirmə və hər hansı formada təminatın yaradılması müharibə cinayəti hesab olunur. Yəni,buradasöhbət şəxsin hansısahərbi əməliyyatında iştirakından deyil, dövlətin buna təminat verməsindən gedir. Eyni məsələlər "Muzdluların işə götürülməsi, istifadəsi, maliyyələşdirilməsi və təlimi əleyhinə" 1989-cu il Konvensiyada da əks olunmuşdur. Bu səbəbdən də hesab edirik ki, burada bir uyğunsuzluq var. Nəzərə alsaq ki, Azərbaycan Respublikası bu konvensiyanı ratifikasiya edib və demək olar ki, konvensiyanın müddəaları məcəlləyə implementasiya edilib.Bu səbəbdən də məcəllə ilə konvensiyaƏgər söhbət beynəlxalq sülhə və təhlükəsizliyə qəsddən gedirsə, dövlətin və ya fiziki şəxsin məsuliyyətinə fərq qoyulmamalıdır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 114-cü maddəsinə görə muzdluluğun özü müharibə cinayəti hesab olunduğu üçün məsuliyyətə səbəb olunduğu halda, yuxarıda adıçəkilən konvensiyalara görə muzdluluq

müharibə cinayətləri kimi deyil, muzdluların törətdikləri beynəlxalq humanitar hüququn ciddi pozuntuları beynəlxalq cinayət məsuliyyətinə səbəb olur [9].

Bununla belə, "Muzdluların işə götürülməsinə, istifadəsinə, maliyyələşdirilməsinə və təliminə qarşı" Beynəlxalq Konvensiya və "Afrikada muzdluluğun aradan qaldırılması üzrə" Konvensiyasında muzdluluğa verilən tərif I Əlavə Protokolda olan təriflərlə müqayisədə müəyyən oxşarlıq olsa da mövqelər tamam fərqlidir. Həqiqətən də, beynəlxalq humanitar hüquq Əlavə Protokol vasitəsilə sadəcə silahlı münaqişə zamanı muzdlulara veriləcək statusu və əsir götürüldükdə onlara veriləcək müdafiəni aydınlaşdırır. Bunun əksinə olaraq, "Muzdluların işə götürülməsinə, istifadəsinə, maliyyələşdirilməsinə və təliminə qarşı" Beynəlxalq Konvensiya və "Afrikada muzdluluğun aradan qaldırılması üzrə" Konvensiyada muzdluluq və muzdlulardan istifadənin cinayət hesab olunması bu fərqiliyi aşkara çıxarır. Beynəlxalq humanitar hüquqa əsasən, muzdlular döyüş əməliyyatlarında birbaşa iştirak etmək hüququ olmayan mülki şəxslərdir. Bunu etmək üçün cinayət təqibinə dəvət oluna bilər. İstər beynəlxalq konvensiyalarda, istərsə də Azərbaycan Respublikasının Cinayət Məcəlləsində müharibə cinayətləri ilə bağlı normalar, xüsusilə, 114-cü maddədə əks olunmuş muzdluluq cinayətinin ictimai təhlükəliliyi silahlı münaqişəlr zamanı hərbi əməliyyatlarda iştirak etmək məqsədilə maddi mükafat əldə etməyi özünə peşə seçən qeyri-müəyyən sayda insanların meydana çıxması, həmin şəxslərin iştirakı nəticəsində təkcə münaqişə tərəflərinin deyil, eyni zamanda dincmülki əhalidən çoxlu sayda insanların məhv edilməsi ilə xarakterizə olunur [10].

Son olaraq qeyd etmək istərdik ki, müəyyən beynəlxalq konvensiyalarda əks olunan muzdluluğun mahiyyəti, eyni zamanda muzdluların törətdiyi beynəlxalq humanitar hüququn ciddi pozuntularının müharibə cinayətləri hesab olunması məsələsi tam aydındır, lakin muzdluluğun özünün konkret olaraq, beynəlxaq hüquq normalarında müharibə cinayəti olub-olmaması tam aydın deyil, hesab edirik ki, bununla bağlı konkret yanaşmalar olmalıdır.

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR**

1. F.Y.Səməndərov, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Komentariyası. I hissə, Hüquq Yayın Evi, Bakı-2018.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi -https://www.e-qanun.az/framework/46947
3. https://magazin.nzz.ch/empfehlungen/krieg-sind-soeldner-alternativlos-ld.1694862?reduced=true
4. Yusuf A.A. "Mercenaries in the Law of Armed Conflicts." In The New Humanitarian Law of Armed Conflict , edited by A. Cassese, 1:113–27. Naples: EditorialeScientifica, 1979.
5. "Muzdluların işə götürülməsinə, istifadəsinə, maliyyələşdirilməsinə və təliminə qarşı" 1989-cu il Konvensiyası, maddə 1.
6. https://guide-humanitarian-law.org/content/article/3/mercenaries/
7. https://www.ohchr.org/en/node/3383/international-standards
8. Qoldşteyn, Bohunka O. "Muzdlular". Beynəlxalq Cinayət Hüququnda, M.Cherif Bassiouni tərəfindən redaktə edilmiş, 439–58. Ardsley, NY: Transmilli, 1999.
9. Cameron, Lindsey. "Özəl Hərbi Şirkətlər: Beynəlxalq Humanitar Hüquqda Onların Statusları və Tənzimlənməsinə Təsiri". Qızıl Xaç Beynəlxalq İcmalı 863 (sentyabr 2006): 573–98.
10. Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyalarına I Əlavə Protokol, maddə 47.

## AN INTERNATIONAL LEGAL PERSPECTIVE ON MERCENARIES: COMPARATIVE ANALYSIS OF THE CRIMINAL CODE OF THE REPUBLIC OF AZERBAIJAN AND INTERNATIONAL CONVENTIONS

**Alovsat Allahverdiyev.**

The article provides an explanation of mercenary from the international legal aspect. Since the Criminal Code of the Republic of Azerbaijan states mercenary as a war crime, there is an inconsistency in the approach of the code with international humanitarian law norms. It is true that mercenary is an internationally prohibited practice. The author preferred a comparative analysis, since this act is defined as a crime in the international conventions that include mercenary, and as a war crime in the Criminal Code of the Republic of Azerbaijan. It was explained that according to international humanitarian law, mercenary is not considered a crime. According to the Geneva Conventions, mercenaries do not have the status of prisoners of war even if captured during an armed conflict.

**Key words:** mercenary, war crime, criminal code, international humanitarian law.

## МЕЖДУНАРОДНО-ПРАВОВОЙ ВЗГЛЯД НА НАЕМНИЧЕСТВО: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ УГОЛОВНОГО КОДЕКСА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И МЕЖДУНАРОДНЫХ КОНВЕНЦИЙ

**Аловсат Аллахвердиев**

В статье дается объяснение наемничества с международно-правового аспекта. Поскольку в Уголовном кодексе Азербайджанской Республики наемничество признано военным преступлением, налицо несоответствие подхода кодекса нормам международного гуманитарного права. Это правда, что наемничество является международно запрещенной практикой. Автор отдал предпочтение сравнительному анализу, так как в международных конвенциях, к которым относится наемничество, данное деяние определяется как преступление, а в Уголовном кодексе Азербайджанской Республики - как военное преступление. Уточнялось, что по международному гуманитарному праву наемничество не считается преступлением. Согласно Женевским конвенциям наемники не имеют статуса военнопленных, даже если они попали в плен в ходе вооруженного конфликта.

**Ключевые слова:** наемник, военное преступление, уголовный кодекс, международное гуманитарное право.

## PARALI ASKERLERE ULUSLARARASI HUKUKİ BAKIŞ: AZERBAYCAN CUMHURİYETİ CEZA KANUNU VE ULUSLARARASI SÖZLEŞMELERİN KARŞILAŞTIRMALI ANALİZİ

**Alovşat Allahverdiyev**

Makale, paralı askerlerin uluslararası hukuk açısından bir açıklamasını sunmaktadır. Azerbaycan Cumhuriyeti Ceza Kanunu paralı askerliği bir savaş suçu olarak tanımladığından, kanunun uluslararası insancıl hukuk normlarına yaklaşımında bir tutarsızlık vardır. Paralı askerin uluslararası düzeyde yasaklanmış bir eylem olduğu doğrudur. Yazar, bu fiilin paralı askerlik içeren uluslararası sözleşmelerde suç, Azerbaycan Cumhuriyeti Ceza Kanununda ise savaş suçu olarak tanımlanması nedeniyle karşılaştırmalı bir incelemeyi tercih etmiştir. Uluslararası insancıl hukuka göre paralı askerliğin suç sayılmadığı açıklandı. Cenevre Sözleşmelerine göre paralı askerler, silahlı bir çatışma sırasında yakalansalar bile savaş esiri statüsüne sahip değiller.

**Anahtar kelimeler:** paralı asker, savaş suçu, ceza kanunu, uluslararası insancıl hukuk.